### 6. Uşağa uşaq kimi baxma

*"Ağ göyərçinlər"* romanının qəhrəmanı Yusifin həyat və insanlar haqqında düşüncələri uşaq yaşına uyğun gəlməyə bilər. Hətta bəzi oxucularda belə təsəvvür yarana bilər ki, burada bir şərtilik var. Yəni yazıçı öz ideyalarını, düşüncələrini bir yeniyetmə uşağın dili ilə oxucuya çatdırmaq istəyir. Ancaq uşaqlar haqqında məşhur pedaqoqların belə bir fikri var ki, *"uşağı uşaq yerinə qoyma"*. Deməк, buradan belə bir nəticə çıxır ki, uşaq əslində nəyisə görürsə, nəyinsə yaxşı, nəyinsə pis olduğunu bilirsə, o artıq şəxsiyyətdir.

Ümumiyyətlə, uşaq, hətta lap körpə yaşında olanda belə böyüklərdən fərqli olaraq daha inadlı şəkildə öz haqqı, hüququ uğrunda mübarizə apara bilir. Körpə bir uşağın əlindən oyuncağını çəkib almaq istəsən, onu necə mühafizə etmək istədiyini, hətta əli ilə necə bərk-bərk tutduğunu əgər mümkün olmasa, uşağın özününkü bildiyi əşyanı onun əlindən alırsansa, onda necə çığırdığını da görə bilərsən. Yəni hər kəs öz haqqının və hüququnun müəyyən mənada sahibidir və bu haqqı, hüququ onun əlindən almaq olmaz. Yusif hələ yeniyetmə də deyil. Deməк, nə qədər uşaq olsa da, hər halda nəyin pis, nəyin yaxşı olduğunu kifayət qədər anlamaq gücündədir. Bütün hallarda bu anlaqlı uşaq artıq yaxşı başa düşür ki, bu anasının, qardaşının və ümumiyyətlə, bütün ailənin, qohumlarının başlarına gələn hərət missiyasını daşıyır. Ailə qəddar nənənin təzyiqləri altında binələndikləri yeri-yurdu tərk etməli olur. Zeynəb müəllimin rəfiqəsi Nərgizgilin bağına köçürlər. İlk baxışdan belə düşünmək olardı ki, onlar artıq sərt əsarətdən, qınaqlardan, təzyiqlərdən xilas olublar. Amma cəmiyyət içərisində insan adlana biləcək elə məxluqlar var ki, onlar üçün insani dəyərlər demək olar ki, heç bir mahiyyət kəsb etmir. Bəlalərinin sırasında Nərgiz müəllimin həyat yoldaşı da var. O, Zeynəb müəllimə tamam başqa gözlə baxır. Ondan istifadə etmək, vaxtını keçirmək, imkansızlığından sui-istifadə ilə niyyətlərinə çatmaq məqsədi güdür.

Əlbəttə, adı Adil olan, amma adillikdən, ədalətdən tamam uzaq olan bu şəxsin, demək olar ki, elə ilk günlərdən idbar təbiəti üzə çıxır.

Yusif bütün bunların hamısını müşahidə edir. O çox yaxşı görür ki, anası gündən-günə necə sürətlə dəyişir. Zərif, gözəl anası həyatın gətirdiyi bəlalara qarşı mübarizədə təkdir, tənhadır. O, övladlarını böyüdə biləcəyi inamdan güc alır. İnanır ki, bir gün gələcək Yusifi də, İbrahimi də böyüyəcək, lap elə torpaqlar da işğaldan azad olunacaq və o zaman insanlar içərisində mənəvi ucalığı ilə həmin yerlərə qürurla qayıdacaq.

Amma neyləyəsən ki, ümidlərin gözlədiyi zaman hələ gəlmir. Sanki uzaq üfüqlərdən sozalmış şəkildə görünən həmin gələcəyə çatmaq üçün insan iradəsinin qeyri-adi dözümü, gücü gərəkdir.

*Anam sərt cavab verdi:*

*-Danışığınıza fikir verin, xahiş edirəm, Adil qardaş.*

*-Aaa, mən hardan sənin qardaşın oldum?*

*- Mənim üçün bütün kişilər qardaşdı.*

*-Mənim üçünsə sən bacı deyilsən.*

*-Bax mən Nərgizin xətri üçün sizinlə bu qədər nəzakətlə danışıram, hərəkətlərinizə və danışıqlarınıza diqqət edin, ayıbdı.*

*-Diqqət etməsəm nə olacaq ki? Mənim evimdə yaşayırsınız, bunun bir haqqı olmalıdı, ya yox?*

*-Ağzınıza gələni danışmayın, əgər evə kirayə haqqı istəyirsinizsə, elə bu aydan verərəm.*

*-Ay dilbilməz, pulla demirəm.*

*Anam əlindəki alaqları təmizlədiyi kərkini yuxarı qaldırdı:*

*-Rədd olun burdan, evinizi də bir neçə günə boşaldacayıq.*

*O yenə gülümsədi:*

*-Necə yəni?*

*-Eşitdiyiniz kimi, mən Nərgizin sözüylə buraya gəldim, əgər bilsəydim, belə hadisələr baş verəcək heç gəlməzdim.*

*-Dəlisən, bu iki uşaqla niyə naz edirsən, hardan gələrəm, Nərgiz də bilməyəcək.*

*Anam elə qışqırdı ki, bütün qonşular eşitdi:*

*-Rədd olun burdan, alçağın biri alçaq. Mən sizi bir insan hesab edirdim, sən demə, bir ac canavarsınız hamınız. Kaş məni o alçaq ermənilər öldürəydi, gəlib bəlalarınıza rast olmayaydım. Səhərdən özümüzə ev tapacağam, indi* Zeynəb müəllimin ətrafında da elə insanlar var ki, onlar kifayət qədər doğru, dürüst yolun sahibləridir.

İlk baxışdan bizə elə gələ bilərdi ki, Zeynəb ana bu bağa köçməklə həradasa, öz vəziyyətini daha da çıxılmazlığa məruz qoyub. Amma ətrafda yaxşı insanlar da var. Onlar qadının səsinə qapını, pəncərəni bağlamırlar, mütləq bu səsin çağırdığı tərəfə gəlməyi özlərinə borc bilirlər.

Qonşuluqda yaşayan qoca ər-arvadın gəlişi, hadisələrə müdaxiləsi prosesi dəyişməyə səbəb olur. Bir sözlə, ilk və sərrast qarşıdurmadan ana qələbə ilə çıxacağına əmin ola bilər: *"Qonşuda yaşayan qoca ər-arvad gəldi anamın səsinə. Fatimə nənə yerə oturub ağlayan anamın qolundan tutdu, xeyli ürək-dirək verdi. Xəlil kişisə başını buladı xeyli:*

*-Allah bu insanları islah etsin! Heç bunlarda utanmaq, çəkinmək yoxdu tanrıdan. Yazıq qadın iki körpəylə ayaq üstə durmağa çalışır, bu da evli adam tərbiyəsizlik edir. Narahat olma, qızım, biz buradayıq, nə lazımsa kömək edərik sənə.*

*Anam göz yaşlarını silib ayağa qalxdı:*

*- Xəlil dayı, mənə buralardan ucuz bir ev tapa bilərsiniz? Bilirsiniz halımızı, bahalı evə pulumuz çatmaz, içinə yağış düşməsin yetər, birtəhər yaşayarıq".* Bu mənzərəni müşahidə edən uşağın keçirdiyi hissləri təsəvvür etmək heç də çətin deyil. Özü də o uşağın ki, həyatın gətirdiyi faciələrlə üzləşmiş və vaxtından əvvəl böyümüş bir uşağın gördüyü mənzərədən sarsıl-

# VIII. "AĞ GÖYƏRÇİNLƏR" AYDINLIĞA DOĞRU

disələrin əsas səbəbkarı müharibədir. Əslində Yusif hadisələrə hər hansı bir müdaxiləsi ilə - anasının sıxıntıları zamanı onun yanında olması, nənəsinin qəddarlığına qarşı onun varlığında oyanan etirazlar... bütün bunlarla o göstərməyə çalışır ki, əsas səbəbkara qarşı - yəni müharibə adlı əjdahaya qarşı vuruşur.

İnsan nə qədər mənən silahlı olsa da, özünü haqlı və güclü bilsə də, mənfi emosiyaların üzərinə axınla hərəkət etdiyi məqamlarda tənhadır və gücsüzdür. Yusif anasının belə bir tənhalıq durumundakı gücsüzlüyünü artıq hiss etməkdədir. Ona görə də o, hansısa bir hərəkəti, sözü ilə anasına dayaq durmağa, anasının ailəni hifz etmək naminə apardığı müharibədə öz imkanı ilə ona dayaq durmağa, kömək eləməyə çalışır.

Yusifin anasının təbiəti elədir ki, o, sahib olduğu sərhədləri qorumaq üçün bütün ciddi-cəhdlə çalışır. Birinci növbədə balalarını çörəklə, yeməklə təmin etmək istəyir. O çalışır ki, balaları heç olmasa bir daldalanacaqda isti bir yuva ilə təmin olunsunlar. Ancaq bu çalışmaların hamısının məğzində onun övlad istəyi bir ana kimi fədakarlığı dayanır.

Yusifin anasının faciəsi orasındadır ki, yerindən-yurdundan didərgin olub. Bir növ cəmiyyətin ictimai nəzarət obyektindən kənardadır. Yəni onun başına nə gəlsə, bütövlükdə cəmiyyətin, ən azı doğmaların, yaxınların, onu tanıyanların heç birinin xəbəri olmayacaq. Əgər Zeynəb müəllim, yəni Yusifin anası özünün və övladlarının dolanışığı üçün yüngül yola meyilli olsaydı, bunun ictimai nəzrətdən kənarda olduğu üçün bəlkə heç problemi də olmazdı. Amma Zeynəb müəllim üçün özünün təbiəti, vicdani imkanları onun üçün ən yüksək dərəcədə ictimai nəz-

Bütün bunları Yusif görür və özünəxas bir təəssüratla xəyalından keçir: *"Doğrusu, mən də uşaqlığımla bunun fərqindəydim, elə hərdən istəyirdim anama deyəm ki, çox qocalmısan, ancaq qorxurdum onun könlünə dəyməkdən. Heç güzgüyə də baxmırdı saçını darayanda, fikir verirdim həmişə. Lakin kim nə deyir-desin, o çox gözəldi elə bu halıyla da. İri və ala gözləri, ağ bənizi, yaraşıqlı üzü hələ də öz təravətini itirməmişdi. Tanış olmağa gələn qonşuların da hamısı ona əsl Qarabağ gözəlisən deyirdi. Nərgiz müəllimægil gedəndən bir neçə vaxt sonra Adil dayı yenə gəldi. Anam bağçada nəsə edirdi, tez onun yanına getdi, gülə-gülə salam verdi. Anam isə qaş-qabaqlı cavab verdi ona".* Bu ilk müqavimət gücünün görüntüsüdür. Ana ilk baxışdan zahiri görkəmi ilə adı Adil olub adillikdən xəbəri olmayan bu şəxsə mövqeyini çatdırır. Sanki ona başa salmaq istəyir ki, ünvanı səhv salıb.

Əlbəttə, insan öz hisslərinin əsiri ola bilər. Amma həyatın elə dərsləri var ki, ondan düzgün nəticə çıxartmaqla insan öz səhvlərini də düzəldə bilər. Amma Adil öz səhvlərini düzəltmək iqtidarında deyil. Hətta o, mənəviyyatsızlıq göstəricisi olan təbiətinin təlqini ilə daha irəliyə can atır. Bu, ailənin imkansızlığından istifadə edərək onu sanki caynağına keçirmək istəyir.

Ulduz Qasımın tərəflərin kimliyinə işıq tutan sərrast dialoqu yaranmış vəziyyətin mənəvi mənzərəsinin ən gözəl göstəricisidir:

*"- Nədi müəllimə, kefiniz yoxdu.*

*- Niyə ki, hər şey öz qaydasındadı.*

*Bu gözəllikdə qadının kefi gərək əla olsun, göylərlə getsin.*

*- ...*

*- Dünyada bələləri çıraqla axtarılır. gözüm görməsin kölgəni belə, yoxsa polis çağıraram.*

*-Dəlidi e bu, kül qoyum başına, mən də deyirəm gözəl bir qadındı, sən demə, ipləmənin biridi ki".* Bu dialoqun tərəflərin düşüncələrini ifadə edən sərrast mühakimələrin, etirazların, təkidlərin, iyrənc istəyin və ona qarşı müqavimətin göstəricisi olan cümlələr sanki soyuq sözlərdən ibarət deyil. Tərəflərin kimliyini göstərən canlı varlıqlardır. Sərrast, tutarlı deyimlərlə ana öz sərhədlərini mühafizə edir. Təcavüzkar münasibəti ilə bu sərhədləri dağıtmağa, bu sərhədləri işğal etməyə cəhd göstərən ikinci tərəf isə eybəcər və eyni zamanda qara, qorxulu bir qüvvə kimi özünü biruzə verir. Yəqin ki, bu qarşılaşmada kimin haqlı, kimin haqsız olduğu kifayət qədər aydınlığı ilə görünür.

Haqlı tərəf imkansızdır. Fiziki cəhətdən gücsüzdür. Onun övladlarının yaşamaq yeri yoxdur. Bir isti bucağa möhtacdırlar. Amma əvəzində ləyaqət sərhədləri kifayət qədər möhkəmdir. Lap elə gözlərinin qabağında övladları acından ölsə belə, sərhədlərinin pozulmağına yol verməz. Bu onun mənəvi-psixoloji əsaslarla nəsil-şəcərə kökünə bağlılığından irəli gəlir. İnsanın kimliyini qorumaq kimi bir anlayışa sədaqətindən irəli gəlir. Həyatın ağrı-acıları, çətinlikləri onun daxili iradəsini və inamını qıra bilməz. Ən başlıcası, vətən uğrunda şəhid olan həyat yoldaşının, igid Yaqubun ruhuna ən ali dərəcədə hörmətinə heç nə xələl gətirə bilməz.

Zeynəb ana bütövlük timsalı olduğu üçün ona qarşı tərəflə mübarizə aparmaq çətin deyil. Ən başlıcası, ona görə ki, onun üçün hər şey öz sərhədlərindən o tərəfdə qalır.

Dünya hamının olduğu kimi hamı da dünyada eyni təbiətdə deyil. Elə maması mümkündürmü? Yəqin ki, yox. Anasının yaşadığı əlacsızlıq hisslərini uşaq da yaşayır.

Ulduz Qasımın bu dəhşətli psixoloji çarpışmanı əks etdirən yazısını oxuduqca müəllifin həyat həqiqətlərinə nə qədər yaxın olduğunu təsəvvür etməmək mümkün deyil. Bəli, vaxtından əvvəl böyümüş uşağın keçirdiyi hisslər onun yaşadığı faciənin dəhşətlərindən xəbər verir. Bundan sonra onun neçə il ömür yaşamasından asılı olmayaraq bu hadisələrin heç birisi onun yaddaşından silinməyəcək.

Yenə çıxılmazlıq. Yenə hadisələrin dəhşətli mənzərəsi, yenə gərginlik. Ev sahibi olan idbar Adilin bağ evində yaşamaq artıq mümkün deyil. Ailə özünə yeni yer tapmalıdır. Amma bunu tapa biləcəkmi, bu mümkün olacaqmı? İlk baxışdan adama elə gəlir ki, artıq həyatın sonudur, ailə uçurumun kənarındadır. Amma yaxşı insanların meydana çıxması ümidi də tükənmir. Bütün bunlarla Ulduz Qasım oxucuya təlqin etmək istəyir ki, ən çıxılmazlıq zamanında belə yenə də həyatın davam edəcəyinə inam qırılmamalıdır.

Ümumiyyətlə, Ulduz Qasımın "Ağ göyərçinlər" romanında belə bir məqam təlqin olunur ki, həyat ilahi bir nizama tabedir, insanlar nə qədər ayrı-ayrı vaxtlarda çıxılmazlıqlara düçar olsalar da, bir məqam gəlir ki, həyat işığı onların varlığına daxil olur, inamlarını, ümidlərini hifz edir. Bir sözlə, yaşamağa çağıran, həyatın bitmədiyinə inam yaradan səbəblər çoxdur, hətta sonsuzdur. Sadəcə belə məqamları yerinə görə düzgün görmək, düzgün başa düşmək lazımdır.

***07.12.2022***